

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 166 (21.827)

*1 sentyabr 2017-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## 3 sentyabr 1991-ci il – müstəqil Azərbaycanın qurtuluş tarixinin başlandığı gün

***1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən fövqəladə sessiyada deputatların və iclas zalının qarşısına toplaşan minlərlə insanın təkidi ilə xalqımızın xilaskarı, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyev Ali Məclisin Sədri seçilmişdir. Bununla da, qədim Naxçıvanda milli qurtuluşun, milli dövlətçiliyin təməlləri atılmışdır.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov dahi şəxsiyyətin siyasi fəaliyyətinin Naxçıvan dövrü barədə demişdir: ***“Azərbaycanın siyasi tarixində parlaq iz qoymuş bu böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxartdı”.***

Belə bir fikir var ki, böyük şəxsiyyətlərin dünyaya gəlişi sakit, idarəçiliyə gəlişi mərhələli, idarəçilikdən gedişi xarizmatik, siyasi hakimiyyətə yenidən qayıdışları isə möhtəşəm olur. Bu möhtəşəm qayıdış heç də həmişə yox, yalnız tarixin gedişatının dəyişdiyi məqamlarda baş verir. Ümummilli lider Heydər Əliyevin dövlətçilik fəaliyyətinə nəzər saldığımız zaman biz bu mərhələləri açıq-aydın görürük.

XX əsrin 60-cı illərinə qədər dövlət idarəçiliyinin müxtəlif və məsuliyyətli mərhələlərində çalışmış ümummilli lider Heydər Əliyev üçün 1969-cu ilin iyul ayının 14-dən sonrakı dövr yeni bir mərhələ olmuşdur. Bu mərhələdə xalqımızın böyük oğlu əsl dövlət xadimi kimi idarəçilik fəlsəfəsinin əsas konturlarını müəyyənləşdirmişdi. Onun ideya-siyasi istiqamətini xalqın tarixi yaddaşının bərpası, sürətli inkişaf strategiyasının gerçəkləşdirilməsi təşkil edirdi.

Ümummilli liderin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsinə seçilməsi isə Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisə idi. Dünyanın iki nəhəng dövlətindən biri kimi tanınan Sovet İttifaqının rəhbərlərindən biri olmuş, uzun illər Azərbaycan Respublikasına bacarıqla rəhbərlik etmiş ulu öndər Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi Azərbaycan milli dövlətçiliyi tarixinin ən mühüm hadisəsi, Azərbaycan xalqının itməkdə olan ümidlərinin dirçəldilməsi və gələcəyə inamının artması baxımından möhtəşəm dönüş idi.

***“Mən bu zamanın, bu dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim. ...Mən öz prinsiplərimə sadiq qalaraq Azərbaycanın, Naxçıvanın belə vəziyyətində, çətin günündə, dövründə mənim üzərimə düşən vəzifənin ifasından geri çəkilə bilməzdim. Mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini indi bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm”.*** Ulu öndərimiz Heydər Əliyev 3 sentyabr 1991-ci ildən etibarən məhz bu fikirlərin işığında öz xilaskarlıq missiyasını həyata keçirdi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyəti dövründə qısa müddət ərzində neçə-neçə onilliklərə sığmayan böyük işlər gördü.

Ali Məclisin Sədri kimi yorulmaq bilmədən çalışan ümummilli liderimiz düşmən təcavüzünə məruz qalan, blokada şəraitində yaşayan Naxçıvanın, ilk növbədə, müdafiə qabiliyyətini gücləndirmişdir. 1991-ci il sentyabrın 7-də Ali Məclis Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul etmişdir. Bu qərar Naxçıvanın müdafiə qabiliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərin başlanğıc nöqtəsi idi. Sonrakı dövrlərdə qəbul edilmiş tarixi qərarlarla isə Naxçıvanda yerləşən sovet qoşunlarına məxsus hərbi texnika və silahların yüz faiz muxtar respublikada saxlanması təmin olunmuşdur. Əhalinin böyük mütəşəkkilliyi, torpağa bağlılığı və ulu öndərə olan sonsuz inamı nəticəsində muxtar respublikada Milli Ordu yaradılmış, Naxçıvanın müdafiə potensialı gücləndirilmiş, bugünkü qüdrətli Azərbaycan Ordusunun əsası doğma Naxçıvanda qoyulmuşdur. Qeyd etmək lazımdır ki, ilk milli hərbi parad da 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilmişdir.

Muxtar respublikanın düşmən hücumundan və sosial-iqtisadi böhrandan xilası istiqamətində mühüm qərarlar qəbul edən dahi rəhbər digər tərəfdən Azərbaycanı müstəqil, xalqımızı firavan görmək istəyirdi. Ümummilli liderimiz Heydər Əliyevin Ali Məclisin Sədri işləyərkən dünya azərbaycanlılarını bir ideya ətrafında – Vətənə və xalqa xidmət uğrunda birləşməyə səsləməsi də bu istəkdən, bu arzudan irəli gəlirdi. Çünki xalq arasında sağlam ideologiyaya əsaslanan birlik olmadan ölkəni düşdüyü bəlalardan qurtarmaq və inkişaf yoluna çıxarmaq mümkün deyildi. 1991-ci il dekabrın 16-da Ali Məclis tərəfindən “31 Dekabr Dünya Azərbaycan Türklərinin Həmrəylik və Birlik Günü haqqında” Qərarın qəbul edilməsi, bu mənada, xüsusi əhəmiyyətə malikdir.

Ulu öndər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyət göstərərkən xarici iqtisadi əlaqələrin qurulması sahəsində də mühüm addımlar atmış, 1992-ci ildə qonşu Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına səfərlər etmiş, keçirilən görüşlərdə iqtisadi sahədə əməkdaşlığa dair protokollar imzalanmış, hər iki dövlətlə iqtisadi, mədəni, təhsil və digər sahələrdə qarşılıqlı münasibətlər qurulmuşdu.

Muxtar respublikanın dağılmış iqtisadiyyatının, xüsusilə də kənd təsərrüfatının dirçəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi də görkəmli dövlət xadiminin diqqət mərkəzində olmuşdur. Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edilmiş, bu islahatlar aqrar bölmədə irəliləyişlərə səbəb olmuşdur. Bu qərarların qəbul edilməsi hazırkı dövrdə muxtar respublika iqtisadiyyatının aparıcı sahələrindən biri olan kənd təsərrüfatının inkişafını şərtləndirən mühüm amil olmuş, bununla da, Azərbaycanda torpaq islahatına ilk dəfə Naxçıvandan başlanılmışdır.

Ölkəmizin ictimai-siyasi həyatı, gələcəyi üçün daha mühüm bir hadisə 1992-ci il noyabrın 21-də yenə də Naxçıvanda baş verdi: müstəqil Azərbaycanın ən qüdrətli partiyası olan Yeni Azərbaycan Partiyası yaradıldı. Azərbaycanın gələcəyinin təhlükə qarşısında qaldığı, dövlətimizin taleyinin həll olunduğu bir dövrdə yaranan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoydu. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ən önəmlisi isə ulu öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi.

***“...Gərək hər bir rəhbər adam belə hesab etsin ki, onun borcu xalqının, öz torpağının, rəhbərlik etdiyi vilayətin, respublikanın müqəddəsliyinin keşiyində durmaqdır. Deməli, özünü bir kənara qoymalısan, öz şəxsi arzularından əl çəkməlisən, özünü ancaq bu işə sərf etməlisən”,*** – deyən ümummilli liderimiz muxtar respublikanın ozamankı ağır vəziyyətində – soyuq iş otağında, çıraq işığında xalq və dövlət üçün çalışmağın, bu yolda fədakarlıq göstərməyin real nümunəsini yaratmışdır.

Azərbaycanın siyasi burulğanlar məngənəsindən çıxa bilmədiyi 1991-1993-cü illərdə Naxçıvanda ulu öndərimiz tərəfindən taleyüklü addımlar atılır, Azərbaycanın gələcək müstəqilliyini təmin etməyə yönəlmiş qərarlar qəbul olunurdu. Bu isə ölkəmizin müstəqilliyini istəməyənləri razı salmırdı. Antimilli qüvvələr siyasi mübarizə məntiqinə sığmayan vasitələrdən istifadə etməyə çalışırdılar. 1992-ci il oktyabrın 24-də ozamankı iqtidarın təhriki ilə bir qrup silahlı şəxs Naxçıvanda ilk dövlət çevrilişi cəhdinə əl atdı. Lakin Heydər Əliyev dühasına inanan, onunla həmrəy olan xalqın qətiyyətli mövqeyi nəticəsində çevriliş cəhdi tam iflasa uğradı. Bu hadisə bir daha göstərdi ki, naxçıvanlılar ölkəni məhvə sürükləyənləri yox, məhz ümummilli lider Heydər Əliyevi dəstəkləyirlər.

Qeyd etmək lazımdır ki, ulu öndərin Ali Məclisin Sədri seçilməsi və bu vəzifədəki səmərəli fəaliyyəti təkcə muxtar respublikada yox, bütövlükdə Azərbaycan miqyasında ölkəmizin parlaq gələcəyinə olan inamı artırmışdı. Azərbaycanın digər regionlarında yaşayan insanlar xalqımızın böyük oğluna teleqramlar, məktublar göndərir, xalqın üzləşdiyi bəlaların məhz Onun müdrik və uzaqgörən siyasəti nəticəsində həll olunacağına inamlarını ifadə edirdilər. Beləliklə, ulu öndərin Azərbaycanda siyasi hakimiyyətə qayıdışı getdikcə zərurətə çevrilirdi. Xalq qəti əmin idi ki, ölkəni düşdüyü ağır siyasi böhrandan çıxarmağın, torpaqların itirilməsi təhlükəsindən xilas etməyin yeganə yolu dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışındadır. Ona görə də vəziyyətin getdikcə ağırlaşdığını görən xalq yeganə ümid yeri kimi möhtərəm Heydər Əliyevə üz tutdu. Ulu öndər 1993-cü il iyunun 15-də ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla Azərbaycanı parçalanmaqdan xilas etdi.

Ümummilli lider Azərbaycanın inkişaf istiqamətlərini müəyyənləşdirərək deyirdi: ***“Biz Azərbaycanda demokratik respublika, vətəndaş cəmiyyəti quraraq, sivilizasiyalararası cəmiyyət uğrunda mübarizə apararaq, ümumi dünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməliyik. Biz çalışmalıyıq ki, Azərbaycan uzun illərdən sonra, ilk dəfə müstəqilliyini aldıqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilsin. Güman edirəm ki, Azərbaycan xalqının bu barədə həm tarixi, həm müasir potensialı olduqca böyükdür. Bunların hamısından istifadə olunarsa, Azərbaycan həm tam müstəqil dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik, hüquqi, ümumbəşəri dəyərlər əsasında qurulan demokratik bir cəmiyyət olacaqdır”.*** Dahi siyasətçi bu ideyalarını öz əməli işi ilə reallığa çevirərək qısa müddətdə ölkədə baş alıb gedən hərc-mərcliyi və anarxiyanı aradan qaldırdı, qanunun aliliyi təmin olundu, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiyamız qəbul edildi, müasir idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu, iqtisadi tərəqqini şərtləndirən qlobal layihələr reallaşdırıldı.

Ötən dövrdə Naxçıvan Muxtar Respublikasında da böyük inkişafa nail olunmuşdur. Bu gün əminliklə deyə bilərik ki, ümummilli liderimiz Heydər Əliyevin tarixin çətin məqamlarında böyük xilaskarlıq missiyasını həyata keçirərək qoruyub saxladığı və gələcək inkişaf proqramını müəyyən etdiyi Naxçıvan Muxtar Respublikası ulu öndərin arzusunda olduğu inkişafa və tərəqqiyə qovuşub. Bütün bunlar isə ümummilli liderimizin dövlətçilik yolunun Naxçıvanda davam etdirilməsinin nəticəsidir.

*Görkəmli dövlət xadimi Heydər Əliyevin istər Ali Məclisin Sədri işlədiyi, istərsə də Azərbaycan Respublikasının rəhbəri kimi fəaliyyət göstərdiyi illər ölkəmizdə müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrü kimi yadda qalmışdır. Çətin və mürəkkəb dövrdə dahi şəxsiyyət yorulmaz mübarizəsi ilə yeni bir epoxa yaratmışdır. Bu, Azərbaycanın xilası və inkişafı epoxasıdır.*

**Rauf KƏNGƏRLİ**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından Özbəkistanın Səmərqənd vilayətindəki İmam Buxari ziyarətgahına “Qurani-Kərim” bağışlanıb

*Qədim Səmərqənd şəhərindəki İmam Buxari ziyarətgahının muzeyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tərəfindən göndərilən “Qurani-Kərim”in təqdimetmə mərasimi keçirilib.*

Tədbirdə Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, Özbəkistanın İmam Buxari Ziyarətgah Kompleksinin rəhbəri İlhom Ramazanov, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti İsa Həbibbəyli, humanitar elmlər bölməsinin akademik-katibi, akademik Teymur Kərimli, səfirliyin müşaviri Mahir Hacıyev, səfirliyin nəzdindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov, Səmərqənd vilayəti üzrə Azərbaycan diaspor təşkilatının rəhbəri Adilağa Mirzəyev və Səmərqənd vilayət hakimiyyətinin nümayəndələri iştirak ediblər.





Hüseyn Quliyev Azərbaycan-Özbəkistan əlaqələrindən, iki xalq arasında əsrlərlə davam edən dostluq münasibətlərindən danışıb, xalqlarımızın din, dil birliyindən, eyni kökə, mədəniyyətə, dinə malik olduğunu xatırladıb. O, Azərbaycan dövlətinin dinə qayğısından, ölkəmizdə mövcud olan tolerantlıq mühitindən bəhs edib. Diplomat bildirib ki, bu ilin iyun ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Səmərqənddə olarkən İmam Buxari ziyarətgahına gedib və buradakı muzeydə müxtəlif dövlət rəhbərləri və din xadimləri tərəfindən hədiyyə olunmuş “Qurani-Kərim” kitabları ilə tanış olub. Diplomat deyib ki, Ali Məclisin Sədri muzeydə olarkən buraya Azərbaycandan da nəfis şəkildə hazırlanmış müqəddəs “Qurani-Kərim”in hədiyyə olunmasına qərar verib.

İsa Həbibbəyli 2017-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkədə “İslam Həmrəyliyi ili” elan edildiyini və Azərbaycanda bu il “İslam həmrəyliyi oyunları”nın keçirildiyini qeyd edib. Azərbaycanın İslam dünyası ilə dostluq və əməkdaşlığa can atdığını bildirən akademik tədbirin əhəmiyyətindən, Azərbaycanda İslam ənənələrinin qorunub saxlanılmasından və bu sahədə həyata keçirilən dövlət siyasətindən danışıb.

İlhom Ramazanov ziyarətgah kompleksi haqqında məlumat verib, Azərbaycan tərəfinin təşəbbüsünü yüksək qiymətləndirib. O, Azərbaycan-Özbəkistan dostluğundan danışaraq bu əlaqələrin yüksək səviyyəyə çatdırılmasında hər iki ölkənin liderlərinin rolunu qeyd edib. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədrinə minnətdarlığını bildirən İlhom Ramazanov Azərbaycan tərəfdən hədiyyə edilən nəfis “Qurani-Kərim” kitabının kompleksin muzeyində nümayiş etdiriləcəyini bildirib.

Sonra Hüseyn Quliyev nəfis “Qurani-Kərim” kitabını İlhom Ramazanova təqdim edib.

**Qulu KƏNGƏRLİ**
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Səmərqənd***

## Hərbi Prokurorluğun yaradılmasının 25-ci ildönümü qeyd edilib



Avqustun 31-də Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun yaradılmasının 25-ci ildönümü qeyd edilib.

Əvvəlcə tədbir iştirakçıları müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri düzüb, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib, Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Daha sonra tədbir Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun inzibati binasında davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında” 2017-ci il 30 avqust tarixli Sərəncamını kollektivin diqqətinə çatdırıb, əlamətdar gün münasibətilə onları təbrik edib.

Daha sonra Cəlil Rüstəmov çıxış edərək deyib ki, Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğu 25 ildə mühüm inkişaf yolu keçib. Ali Məclis Sədrinin diqqət və qayğısı ilə muxtar respublikada hüquq institutlarının inkişafı təmin edilib, onların səlahiyyətləri artırılıb və fəaliyyətlərinin müasirləşdirilməsi üçün tədbirlər görülüb. Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun statusunun artırılması da bu diqqət və qayğının bir nümunəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2007-ci və 2009-cu illərdə qanunvericiliyə müvafiq dəyişikliklər edilərək Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu yaradılıb, bununla da, Naxçıvan Hərbi Prokurorluğunun statusu yüksələrək Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu adlandırılıb, hərbi prokurora əlavə səlahiyyətlər verilib. Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğu səmərəli hüquqi təsisat kimi formalaşıb, muxtar respublikanın dövlət orqanları sistemində özünəməxsus yer tutub. Hərbi prokurorluq muxtar respublikada yerləşən ordu, hissə və birləşmələrdə qanunların icrasına nəzarət edilməsi, daxil olmuş məlumatlar əsasında yoxlamalar aparılması və törədilən cinayətlərin istintaqı sahəsində qarşıya qoyulan vəzifələrin icrasında mühüm rola malikdir. Muxtar respublikada digər dövlət orqanları kimi, hərbi prokurorluq üçün də yeni inzibati bina tikilib və müasir iş şəraiti yaradılıb. Eyni zamanda prokurorluq işçilərinin əməyinin qiymətləndirilməsi də diqqət mərkəzində saxlanılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 30 avqust tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun işçilərinin bir qrupunun təltif olunması muxtar respublika rəhbəri tərəfindən bu orqanın fəaliyyətinə göstərilən diqqətin daha bir ifadəsidir.

Naxçıvan Muxtar Respublikasının hərbi prokuroru, ədliyyə general-mayoru Yaşar Həsənov qeyd edib ki, 1992-ci il sentyabr ayının 2-də Naxçıvan Qarnizonunun Hərbi Prokurorluğu yaradılmaqla muxtar respublikamızda ilk milli hərbi prokurorluğun təməli qoyulub. Sonrakı dövrdə mövcud qanunlara edilən əlavələrə əsasən qurum Naxçıvan Muxtar Respublikası Prokurorluğu statusu alıb, ölkənin prokurorluq sisteminə ayrıca qurum kimi daxil edilib.

Vurğulanıb ki, bu gün ölkəmizdə bütün sahələrdə aparılan islahatlar ordu quruculuğu və hüquq-mühafizə orqanları ilə iş sahəsində də mühüm tədbirlərin görülməsinə geniş imkanlar açıb. Cənubi Qafqazın ən güclü ordusuna malik ölkəmizdə Silahlı Qüvvələrlə bağlı qanunvericilik bazasının möhkəmləndirilməsi, bu sahədə mövcud qanunların icra və tətbiq olunmasına nəzarət də xüsusi əhəmiyyət kəsb edir. Bununla yanaşı, ölkədə prokurorluq orqanlarında, o cümlədən hərbi prokurorluq sahəsində çalışanların sosial problemlərinin həlli diqqət mərkəzində saxlanılır, onların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görülür. Bundan əlavə, hərbi prokurorluq orqanlarına daxil olan inzibati binalarda əsaslı yenidənqurma işlərinin aparılmasına, yeni binaların inşasına xüsusi diqqət göstərilir. Naxçıvan Muxtar Respublikasının Hərbi Prokurorluğunun 2014-cü ilin aprel ayında istifadəyə verilən inzibati binasında yaradılan şərait bir daha təsdiqləyir ki, ölkəmizdə ordu quruculuğunun, insan hüquq və azadlıqlarının qorunmasında mühüm rola malik olan hərbi prokurorluq orqanlarının fəaliyyətinin günün tələbləri nəzərə alınmaqla qurulması bu sahədə ciddi keyfiyyət dəyişikliklərinin yaranmasına səbəb olub.

Sonra Hərbi Prokurorluğun şöbə rəisi, ədliyyə polkovnik-leytenantı Fazil Nəsirovun, müstəntiq, ədliyyə baş leytenantı Orucəli Zamanovun çıxışları olub.

Tədbirdə prokurorluq orqanlarında səmərəli fəaliyyətlərinə görə Ali Məclis Sədrinin Sərəncamı ilə təltif olunan əməkdaşlara “Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə” və “Rəşadətli əməyə görə” nişanları təqdim edilib. Təltif olunanlar onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər. Bir qrup prokurorluq əməkdaşına isə qiymətli hədiyyələr verilib, təşəkkür elan olunub.

**✍ Səbuhi HÜSEYNOV**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

***Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2017-ci ilin avqust ayında bir sıra qərarlar qəbul etmişdir.***

Belə ki, Nazirlər Kabinetinin 2017-ci il 3 avqust tarixli 71 nömrəli qərarı ilə “Kənd təsərrüfatı məhsulları istehsalçılarının toxum, gübrə və damazlıq heyvanları ilə təmin edilməsinə əlavə dəstək verilməsi ilə əlaqədar bəzi məsələlər barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 22 sentyabr tarixli 226 nömrəli qərarı haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2008-ci il 7 oktyabr tarixli 89 nömrəli qərarında, 72 nömrəli qərarı ilə “Gömrük ödənişlərinin qaytarılması Qaydaları”nda, 73 nömrəli qərarı ilə “Xarici donorlar tərəfindən Naxçıvan Muxtar Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası”nda dəyişikliklər edilmişdir.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2017-ci il 29 avqust tarixli 81 nömrəli qərarı ilə “Kənd təsərrüfatı məhsullarının istehsalçılarına əkin sahəsinin becərilməsində istifadə etdiyi yanacaq və motor yağlarına, habelə buğda və çəltik əkininə görə dövlət büdcəsinin vəsaiti hesabına yardımların verilməsi Qaydaları”nda və 82 nömrəli qərarı ilə “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nda dəyişikliklər edilmişdir. Həmçinin Nazirlər Kabinetinin 2017-ci il 29 avqust tarixli 83 nömrəli qərarı ilə “Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin Ehtiyat Fondunun vəsaitindən istifadə Qaydaları” və 84 nömrəli qərarı ilə “İnzibati xəta haqqında protokol, səlahiyyətli orqan (vəzifəli şəxs) tərəfindən inzibati xəta haqqında işə baxılarkən çıxarılan qərar (qərardad) blanklarının Naxçıvan Muxtar Respublikasının aidiyyəti orqanlarının sifarişi əsasında hazırlanması, saxlanılması, uçotu və təqdim edilməsi Qaydaları” təsdiq edilmişdir. Sonuncu Qaydalara əsasən aidiyyəti orqanlar növbəti ilin tələbatına uyğun proqnozlaşdırılan protokol, qərar (qərardad) blanklarının miqdarı barədə hər il iyulun 1-dək Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyinə rəsmi müraciət edirlər. Aidiyyəti orqanların təqdim etdiyi tələbata uyğun hazırlanmış protokol, qərar (qərardad) blankları Nazirlik tərəfindən aidiyyəti orqanların rəsmi müraciəti əsasında hər ilin 1 mart tarixinədək onlara təhvil verilir.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikası Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Naxçıvan Şəhər İcra Hakimiyyətində payız-qış mövsümünə hazırlıqla bağlı müşavirə keçirilib



***Naxçıvan Şəhər İcra Hakimiyyətində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən yığıncağı İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açıb.***

Naxçıvan Şəhər İcra Hakimiyyəti başçısının müavini Səyahət İmanov yığıncaqda məruzə ilə çıxış edib. Qeyd olunub ki, 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin icrası istiqamətində tabeli müəssisə və təşkilatlarla birlikdə bir sıra işlər görülüb. Belə ki, qarşıdan gələn mövsümə hazırlıq məqsədilə mərkəzləşdirilmiş və fərdi qazanxanalarda cari təmir işləri aparılıb. Sıradan çıxmış nasos və siyirtmələr yeniləri ilə əvəz edilib, elektrik və qaz xətlərinə baxış keçirilib, 1 fərdi qazanxanaya əlavə istilik qazanı qoyulub, 12 yaşayış binasının, Tədris-Ticarət Mərkəzinin xarici istilik sistemi, 4 fərdi qazanxananın 2 tonluq su çəni dəyişdirilib. Hazırda digər qazanxanalarda cari və əsaslı təmir, 15 binada daxili istilik xətlərinin dəyişdirilməsi işləri davam etdirilir.

Qeyd olunub ki, 2017-2018-ci illərin payız-qış mövsümündə 5 mərkəzləşdirilmiş qazanxana vasitəsilə 62 yaşayış binasında 2 min 947 mənzil və 5 inzibati bina, 38 fərdi qazanxana vasitəsilə 111 yaşayış binasında 4 min 687 mənzil və 25 inzibati bina istiliklə təmin olunacaqdır. Ümumilikdə, qeyd olunan dövrdə 173 yaşayış binasında 7 min 634 mənzil və 30 inzibati binada istilik sisteminin saz vəziyyətdə olmasına nəzarət ediləcəkdir. Mövsüm ərzində 23 bina, 967 mənzil fərdi qızdırıcı vasitəsilə istiliklə təmin olunacaqdır. Naxçıvan şəhərində 16 məktəb, 9 bağça fərdi, 1 uşaq bağçası mərkəzləşdirilmiş qazanxana vasitəsilə qızdırılacaqdır. Qış mövsümündə mərkəzləşdirilmiş qazanxanaların mazutla, fərdi qazanxanaların isə dizel yanacağı ilə işləməsi üçün tam şərait vardır. Naxçıvan şəhərində istehlakçıları təbii qazla fasiləsiz təmin etmək üçün təxirəsalınmaz tədbirlərin görülməsinə, avadanlıqların yenisi ilə əvəz olunmasına diqqət artırılıb.

Sonra məruzə ətrafında çıxışlar olub.

Tədbirə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yekun vuraraq bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində Naxçıvan Muxtar Respublikasında 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar müşavirədə verilən tapşırıqların vaxtında yerinə yetirilməsi, qarşıya çıxacaq problemlərin operativ surətdə aradan qaldırılması günün tələbidir. Şəhər infrastrukturunun fəaliyyəti ilə əlaqədar olan hər bir təşkilat bu işdə məsuliyyət daşıdığını unutmamalı, işdə buraxılan nöqsanlar qısa müddət ərzində aradan qaldırılmalıdır. Bu sahədə ötən illərin təcrübəsinə əsaslanaraq demək olar ki, növbəti payız-qış mövsümünə hazırlıq tədbirləri də yüksək səviyyədə icra olunacaq.

**✍ Səbuhi HƏSƏNOV**

## Payız-qış mövsümünə hazırlıqla bağlı görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilir



*2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyində müşavirə keçirilib. Müşaviri kənd təsərrüfatı naziri Elşad Əliyev açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə Kənd Təsərrüfatı Nazirliyinə də bir sıra tapşırıqlar verilib, bununla bağlı nazirlik tərəfindən tədbirlər planı hazırlanıb. Tapşırıqların icrası ilə əlaqədar nazirlik Dövlət Baytarlıq Xidməti ilə birlikdə heyvandarlıq, quşçuluq və arıçılıqla məşğul olan sahibkarlıq subyektlərinin qışlamaya hazırlığı ilə bağlı maarifləndirmə tədbirlərini həyata keçirməli, xəstəliklərə qarşı tələb olunan dərman vasitələri ehtiyatının yaradılmasını diqqətdə saxlamalıdır.

Qeyd olunub ki, son dövrlərdə muxtar respublikada kənd təsərrüfatının inkişafı sahəsində bir sıra layihələr həyata keçirilib. Belə ki, aparılan meliorasiya, irriqasiya tədbirlərinin gücləndirilməsi, lizinq xidmətinin genişləndirilməsi, taxıl və soyuducu anbarların tutumunun artırılması, istixana komplekslərinin, quşçuluq və balıqçılıq təsərrüfatlarının yaradılması, meyvə-tərəvəz emalı müəssisələrinin işə salınması kənd təsərrüfatının sürətli inkişafına əlverişli şərait yaradıb. Toxumçuluq və tingçiliklə məşğul olan təsərrüfatlara subsidiyaların ödənilməsi, yanacaq-sürtkü materiallarına görə verilən yardımların 25 faiz artırılaraq 50 manata çatdırılması, istifadə olunan gübrə və herbisidlərin 70 faizinin pulsuz verilməsi, satılan texnikaların dəyərinə 40 faiz güzəşt tətbiq edilməsi kənd təsərrüfatı ilə məşğul olan sahibkarlara güclü stimul verib.

Vurğulanıb ki, 2018-ci ilin məhsulu üçün cari ilin payızında muxtar respublikada 31 min hektar sahədə şum aparılaraq taxıl əkilməsi nəzərdə tutulur. Bu işlərin mütəşəkkil və optimal müddətdə həyata keçirilməsində kənd təsərrüfatı texnikasının əhəmiyyətli rol oynadığını nəzərə alaraq nazirliyin Texniki nəzarət və aqroservis sektoru tərəfindən texnikaların sazlığı vəziyyəti öyrənilib, lazım olan ehtiyat hissələrinin alınıb gətirilməsi və sahibkarlara çatdırılması üçün tədbirlər həyata keçirilib. Hazırda muxtar respublikada 1978 ədədi yeni olmaqla, 2994 ədəd kənd təsərrüfatı texnikası mövcuddur və onlar saz vəziyyətə gətirilib.

Nazir bildirib ki, toxumçuluq bitkiçilikdə vacib sahələrdən hesab edilir. Muxtar respublikada payızlıq taxıl əkininin aparılması üçün 5500-6000 ton toxum tələb olunur. Tələb olunan toxum, əsasən, torpaq mülkiyyətçilərinin özlərində və toxumçuluq təsərrüfatlarında mövcuddur. Muxtar respublikada fəaliyyət göstərən 5 toxumçuluq təsərrüfatında 600 tondan artıq toxum təmizlənib və bu işlər davam etdirilir. Hazırda təmizlənmiş toxumlar dərmanlanaraq kisələrə yığılır. Payızlıq taxıl əkini sahələrində gəmiricilərlə mübarizə tədbirləri bu il də pulsuz aparılacaqdır.

Sonra Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdirləri Ədalət Hüseynov və Əyyub Abdullayevin çıxışları olub.

Müşavirəyə kənd təsərrüfatı naziri Elşad Əliyev yekun vurub.

Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilən yığıncaqda müəssisənin direktoru Behruz Əzimov çıxış edərək bildirib ki, avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2017-2018-ci illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsinə də bir sıra tapşırıqlar verilib.



Verilən tapşırıqların icrasına uyğun olaraq, müəssisə və təşkilatları vaxtında yanacaqla təmin etmək məqsədilə Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsi Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən, il ərzində 40 min ton A-92 avtobenzinin, 120 min ton dizel yanacağının, 20 min ton bitumun, 11 min ton mazutun, 1200 ton müxtəlif növ yağların, 5 min ton maye qazın muxtar respublikaya gətirilməsi nəzərdə tutulub. Alınan yanacaq Bakı şəhərindən İran İslam Respublikası ərazisindən keçməklə, Bakı-Gürcüstan-Türkiyə yolu ilə Naxçıvan Muxtar Respublikasına gətirilir.

Diqqətə çatdırılıb ki, 2017-ci ilin 8 ayı ərzində 61 min 123,2 ton dizel yanacağı, 21 min 131,7 ton A-92 avtobenzini, 4705,9 ton bitum, 10 min 999,7 ton mazut, 135,2 ton müxtəlif növ yağlar və 716,6 ton maye qaz muxtar respublikaya gətirilib. Müəssisə 2017-ci ilin 6 ayında ümumi dövriyyəsi 39 milyon 725 min manat olan 66 min 117,5 ton müxtəlif növ neft məhsulları satıb ki, bu da 15 min 733,2 ton avtobenzin, 38 min 437,9 ton dizel yanacağı, 1483,6 ton bitum, 10 min 34,5 ton mazut, 323,0 ton maye qaz, 105,3 ton müxtəlif növ yağlardan ibarətdir. İlin ilk 6 ayı ərzində müəssisə satışdan 399,8 min manat mənfəət əldə edib.

Qeyd olunub ki, boruların, nasosların, elektrik avadanlıqlarının saz vəziyyətdə olması nəzarətdə saxlanılır və lazımi tədbirlər görülür. Müəssisədə yanacaq ehtiyatı yaradılıb. Belə ki, bu günədək müəssisənin anbarlarında 1479,0 A-92 avtobenzini, 1715,9 ton dizel yanacağı, 42,2 ton maye qaz ehtiyatı var.

Sonra məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**




# Nehrəm kəndinin Heydər Parkı

## *Bu park kəndin ən gözəl ünvanı, nehrəmlilərin daha çox üz tutduqları məkandır*

1990-cı ildə 340 nömrəli Nehrəm Seçki Dairəsindən Azərbaycan SSR Xalq deputatlığına namizədliyi irəli sürülən ulu öndər Heydər Əliyevin seçicilərlə görüşə gəlməsinə hələ xeyli qalmış Nehrəm kəndinin mərkəzində, necə deyərlər, iynə atsaydın, yerə düşməzdi. Böyükdən-kiçiyə, seçici yaşına çatmayan şagirddən kəndin ağsaqqalı, ağbirçəyinə qədər yüzlərlə adam dahi şəxsiyyəti görmək, dinləmək, bugünkü mürəkkəb şəraitə münasibətini bilmək üçün kəndin meydanına toplaşmışdı. Seçicilərlə görüşdə kənd sakinləri Sosialist Əməyi Qəhrəmanı Əli Əliyev, uzun illər muxtar respublikanın səhiyyə sisteminə rəhbərlik etmiş mərhum Əqil Mehdiyev və başqaları çıxış edərək ulu öndərimiz haqqında ürək sözlərini bildirdilər. Xalqımızın görkəmli oğlu Heydər Əliyev seçiciləri ilə görüşdə dedi: ***“Mən uzun müddət müxtəlif sahələrdə işləmiş, müxtəlif ali orqanların deputatı olmuşam. Xalqın etimadını doğrultmağa çalışmışam. Lakin indiki dövrdə, tarixin bu mühüm mərhələsində, ölkəmizin ictimai-siyasi vəziyyətinin gərgin bir vaxtında Azərbaycan Xalq deputatlığına namizəd göstərilməyim mənim üçün daha xoşdur. Buna görə mən böyük məsuliyyət hiss edirəm. Mənə belə bir etimad göstərdiyiniz üçün sizə minnətdarlığımı bildirirəm. Əgər deputat seçilsəm, heç seçilməsəm də, Azərbaycan xalqının gələcək səadəti uğrunda var-qüvvəmlə çalışacağam. Mən harada olmuşamsa, Nehrəm kəndinin Azərbaycan tarixində xüsusi yerini qeyd etmişəm. Bu tarixi kəndin, Nehrəmin yetirmələri Azərbaycan xalqının tarixində şərəfli yer tutmuşlar. Nehrəmlilər qoçaq, mətin adamlardır. Onlar həmişə öz keyfiyyətlərini qoruyub-saxlayıblar, öz zəhməti, əməyi ilə yaşayan adamlardırlar. Onlar ata-babalarının ənənələrini heç vaxt əldən verməyiblər”.***

Çıxışının sonunda ulu öndərimiz nehrəmlilərin Ona göstərdikləri ehtiramı yüksək dəyərləndirərək dedi: ***“Mənə bir məqam xoşdur ki, siz nehrəmlilər mənə təmənnasız xidmət edirsiniz. Mənim indi heç bir vəzifəm yoxdur və qərarım belədir ki, olmayacaq. Vəzifədə olanda çox adamlar mənə hörmət ediblər. Onların hörmətləri mənə sizin etdiyiniz təmənnasız hörmət qədər əziz ola bilməz”.***

Seçicilərlə görkəmli dövlət xadimi Heydər Əliyevin görüş keçirdikləri ünvan bu gün Nehrəmdə müqəddəs bir yer sayılır. Həmin yer ki, avqust ayının 5-də burada Heydər Parkı salınıb. Parkın açılış mərasimində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib: ***“Son illər Nehrəm kəndində geniş quruculuq işləri aparılmış, yeni məktəb binaları, musiqi məktəbi, rahat yol, xəstəxana tikilmiş, içməli su və kanalizasiya xətti çəkilmiş, rabitə və elektrik xətləri yenilənərək sakinlərin istifadəsinə verilmişdir. Bu gün açılışı olan Heydər Parkı da kənddə həyata keçirilən quruculuq tədbirlərinin davamıdır. Müasir sosial obyektlər və yaradılan infrastruktur imkan verir ki, Nehrəm kəndi daha da inkişaf etsin. Bütün bunlar isə insanlarda dövlətə inamı yaradır, onların rahat yaşayışına xidmət edir. Heydər Parkında istirahət edənlər də 1990-1993-cü illərdə ulu öndər Heydər Əliyevin Nehrəm kənd sakinləri ilə görüşlərini xatırlayacaq, o çətin və tarixi günləri bir daha yada salacaqlar”.***

Ali Məclisin Sədri tədbirdə ötən əsrin 90-cı illərinin əvvəllərini xatırlayıb: ***“Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan ən ağır dövrünü yaşayırdı. Həmin dövrdə ümummilli lider Heydər Əliyevə Bakıda yaşamağa imkan verilmədi. Lakin dahi şəxsiyyət Naxçıvana gələrək buradan Azərbaycanın xilasına başladı, xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıtdı, öz həyatını təhlükə qarşısında qoyaraq bugünkü müstəqil və qüdrətli Azərbaycanı yaratdı. Ölkəmizin həmin çətin dövrlərində Nehrəm kəndinin əhalisi ulu öndərə dəstək verdilər, dahi şəxsiyyətin deputatlığa namizədliyini irəli sürdülər. Nehrəm kəndinin sakinləri hər zaman dövlətçiliyə və vətənə bağlılıqları ilə nümunə göstəriblər. Bu gün kənddə aparılan quruculuq işləri də ölkəmizin inkişafının tərkib hissəsi olmaqla yanaşı, həm də dövlətin Nehrəm kəndinə göstərdiyi qayğının daha bir ifadəsidir”.***

Məlumat üçün bildirək ki, parkın ümumi sahəsi 8515 kvadratmetrdir. Park üçün giriş qapısı tikilib, ərazi dekorativ metal çəpərlə hasarlanıb, müasir işıqlandırma sistemi qurulub, yaşıllıqlar salınıb və oturacaqlar qoyulub. Parkın mərkəzində Azərbaycan Respublikasının Dövlət Bayrağı ucaldılıb.

Həmin ünvan bu gün nehrəmlilərin ən çox üz tutduqları bir məkandır. Çünki yaşayış məntəqəsinin sakinlərinin xatirində ulu öndər Heydər Əliyev fenomeni müqəddəs bir varlıqdır. Onlar məhz bu ünvanda xalqımızın böyük oğlu ilə bir neçə dəfə görüşüblər. Ölkəmizin ən ağır günlərində Ona öz ürək sözlərini deyiblər, Onun məsləhətlərini eşidiblər.

Bu günlərdə Heydər Parkında olduq, nehrəmlilərlə görüşdük. Kənd ağsaqqalı, uzun müddət bu yaşayış məntəqəsindəki ictimai təsərrüfata rəhbərlik etmiş, hazırda Nehrəm bələdiyyəsinin sədri vəzifəsində çalışan Tofiq Abutalıbov deyir ki, görkəmli dövlət xadimi Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi bütün illərdə öz zəngin rəhbərlik təcrübəsi ilə Azərbaycanı ovaxtkı sovet respublikaları içərisində geridə qalmış bir məmləkətdən ən inkişaf etmiş bir ölkə səviyyəsinə yüksəldib. Sevinirik ki, bu dahi şəxsiyyəti nehrəmlilər çox əziz bir insan kimi xatırlayırlar. Bu da səbəbsiz deyil. Ulu öndər həmişə Nehrəmə böyük qayğı göstərib. Bu yaşayış məntəqəsinin inkişafında dahi rəhbərin müəyyənləşdirdiyi siyasətin muxtar respublikada uğurla davam etdirilməsində böyük rolu olub.

Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Akif Hacıyev: “Xalqımızın böyük oğlu Heydər Əliyevin ölkəmiz üçün, onun gələcəyi naminə gördüyü ən böyük iş Azərbaycan dövlətinin qorunub saxlanılması, inkişafı və dünya dövlətləri sırasına daxil olmasıdır. Müstəqillik, xalqın azadlığı uğrunda mübarizə ulu öndər Heydər Əliyevin həyat amalı idi. Onun mübarizliyi, vətənsevərliyi, doğma xalqına, torpağına bağlılığı nəticəsində biz bu gün müstəqil, gündən-günə güclənən, inkişaf edən, dünya birliyində layiqli yer tutan Azərbaycanda yaşayırıq. Bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Bu inkişafa muxtar respublikada dahi öndərin uzun illər üçün hesablanmış quruculuq siyasətinə böyük ehtiram və məhəbbət hesabına nail olunub. Qürur hissi keçiririk ki, bu gün muxtar respublikanın digər yaşayış məntəqələri kimi, yaşadığımız Nehrəm kəndi də təkcə Naxçıvanın deyil, ölkəmizin ən müasir yaşayış məntəqələrindən biridir”.

Söhbətə kənd sakini Muxtar Zeynalov qoşulur: “Yadıma ulu öndərin kəndimizdən deputatlığa namizəd irəli sürülməsi dövrü düşür. O zaman Azərbaycanda belə bir şəxsiyyətin namizədliyinin irəli sürülməsi mərkəzi hakimiyyət tərəfindən heç də yaxşı qarşılanmadı. Ancaq nehrəmlilər bütün maneələrə baxmayaraq, iclas keçirdilər, təşəbbüs qrupu yaratdılar, dahi şəxsiyyətlə dəfələrlə görüşdülər. O dövrdə Azərbaycanı, həmçinin muxtar respublikanın bir neçə seçki dairəsindən Heydər Əliyevin Azərbaycan SSR Xalq deputatlığına namizədliyi irəli sürülmüşdü. Ulu öndərimiz bizim 340 nömrəli Nehrəm Seçki Dairəsindən namizədliyinin irəli sürülməsinə razılıq verdi. Onunla seçki ərəfəsindəki hər bir görüş ümumxalq bayramına çevrilirdi”.

Ölkəmizdə kənd yaşayış məntəqəsində Heydər Parkının inşa edilməsi ilk olaraq Nehrəm kəndinin qismətinə düşüb. Bu parkda dalğalanan Azərbaycan Respublikasının Dövlət Bayrağı bu məkanı daha möhtəşəm edib. Üçrəngli bayrağımızı bizə qaytaran da məhz xalqımızın böyük oğlu Heydər Əliyev olub. İnanırıq ki, belə parkların sayı getdikcə çoxalacaq. Çünki bugünkü Azərbaycan dahi rəhbər Heydər Əliyevin xalqımızın, dövlətimizin inkişafındakı misilsiz xidmətləri hesabına qurulub, yaşayır və yaşayacaq.

**Muxtar MƏMMƏDOV**

## Qurban bayramı insanlara həmrəylik və mənəvi saflıq aşılayır

***Xalqımız İslam aləminin müqəddəs günlərindən biri, uca insani keyfiyyətlərin təntənəsini simvolizə edən Qurban bayramını qeyd edir. Bütün səmavi dinlərin əziz tutduğu Həzrəti İbrahim əleyhissalamın adı ilə bağlı bu müqəddəs gün ümumbəşəri birlik və tolerantlığı təlqin edir. Bu bayramın ən mühüm ayini Həcc ziyarətidir. Dünyanın hər yerindən Həcc ziyarətinə yola düşən müsəlmanlar Kəbə evi ətrafında təvaf edirlər. Qurban bayramı bu ilahi dəyərlərin unudulmamasına xidmət edir. "Qurban" sözü lüğəti mənada "yaxınlaşmaq" deməkdir. Yəni qurban kəsən hər bir kəs bu əməli ilə Allaha yaxınlaşır.***

Allah dərgahında kəsilən qurbanlar ruhi dəyərlərin paklanmasında, insanların xeyirxah əməllər ətrafında birləşməsində mühüm rol oynayır. Üç səmavi dinin – Yəhudilik, Xristianlıq və İslamın hər üçündə də müxtəlif formada qurbanlıq mövcuddur. Lakin İslamda bu ayın xüsusi mahiyyət və əhəmiyyət kəsb edir. Onun əsasında Allaha sonsuz sevgi, Onun qüdrətinə dərin inam və iman işığı durur. Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlər boyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir. Yüksək insani keyfiyyətlərdən olan dostluğun, qardaşlığın, fədakarlığın cəmiyyətdə inkişafı və gələcək nəsillərə təlqin edilməsi üçün gözəl fürsət kimi dəyərləndirilən Qurban bayramı hicrətin ikinci ilində fərz qılınmışdır. "Qurani-Kərim"in "Kəvsər" surəsində deyilir: *"Rəbbin üçün namaz qıl və qurban kəs. "De ki: "Mənim namazım da, kəsdiyim qurban da, həyatım və ölümüm də aləmlərin Rəbbi – Allah üçündür", "Biz hər bir ümmət üçün bir qurbangah müəyyən etdik ki, Allahın onlara ruzi verdiyi dördayaqlı heyvanların üstündə (onları kəsdikləri zaman) Allahın adını çəksinlər".* Bundan əlavə, Peyğəmbərimiz (s.ə.s) buyurmuşdur ki: *"Bayram namazından sonra qurban kəsən ibadətini tamamlamış və müsəlmanların sünnəsinə (yoluna) əməl etmişdir".*

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır və tarixən İslam mədəniyyətinin inkişafına misilsiz töhfələr bəxş etmişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Hər il yüzlərlə azərbaycanlı zəvvarın Həcc ziyarətinə yola düşməsi və bu ziyarətin vacib əməllərindən hesab olunan qurban kəsilməsinə əməl etməsi xalqımızın İslam dininə bağlılığını nümayiş etdirir. Xalqımızın ümummilli lideri Heydər Əliyev bu müqəddəs bayramı yüksək qiymətləndirərək demişdir: ***"Bütün müsəlmanların böyük təntənə ilə qeyd etdikləri Qurban bayramı insanın ən çətin məqamlarında düzgün mövqe seçmək, ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq qüdrətini təcəssüm etdirir".***

Ölkəmizdə rəsmi olaraq iki gün qeyd olunan bu dostluq, qardaşlıq bayramının özünəməxsus qurban kəsmək şərtlərinə görə, qurban kəsən şəxs müsəlman olmalıdır. Qurban ibadəti qurbanlıq heyvanın bayram günlərində qayda-qanunlara uyğun şəkildə şəxsən qurban sahibinin özü tərəfindən kəsilməsi və ya başqasına kəsdirməsi ilə yerinə yetirilmiş olur. Qurban üzürlü səbəbdən bayram günü kəsilməzsə, bayramın ikinci, üçüncü günü də kəsilə bilər. Ancaq unutmayaq ki, bu ayini günün birinci yarısı, yəni gün dönməzdən əvvəl yerinə yetirmək lazımdır.

Qurban kəsmək azad və varlı müsəlmanlara vacibdir. Fitrə verməyə məcbur olan kimsə qurban kəsər. Qaldığı evdən başqa bir evi olan kimsə də qurban kəsməlidir. Bayramda hər bir imkanlı müsəlman qurban kəsib onun ətini imkansızlara, kasıblara paylamalıdır. "Qurani-Kərim"də yazılıb: *"Kəsdiyiniz qurbanlardan Allaha nə ət, nə onun qanı çatmır, ancaq sizin dindarlığınız çatır".* Səfərdə olanlara qurban kəsmək vacib deyildir. Nisab miqdarı malı olmayanların kəsdikləri qurban nafilədir. Bəzi məzhəblərə görə, qurban kəsmək üçün ağıl və həddibülüğa çatmaq şərt deyildir. Beləliklə, varlı olan uşağın malından valideynin qurban kəsməsi lazımdır. Kasıb, imkanı olmayan ailələrin qurban kəsməsi vacib deyil. Bu yalnız imkanlı adamların boynunda haqdır. Qurban əti satılmaz və ya satın alınmaz. Qurban yalnız paylanmaq üçün kəsilər ki, bu paylamanın da şərtləri vardır. Belə ki, kəsilmiş qurban üç yerə bölünür. Həmin üç hissənin biri ehtiyacı olan qonşulara, bir hissəsi qohum-əqrəbaya paylanılır, digər bir hissəsi isə evdə saxlanılır. Quşlardan və ov heyvanlarından qurban kəsmək doğru deyil. Qurban kəsmək ibadəti həm də insanlara sərvətini ehtiyacı olanlarla paylaşmaq əxlaqını qazandırır.

Muxtar respublikamızda dini-mənəvi dəyərlərimizə hörmətlə yanaşılır, İslamın müqəddəs günləri və bayramları qeyd olunur. Qurban bayramı da hər il Naxçıvanda həmrəylik və mərhəmətin təntənəsinə çevrilir, qurbanlar kəsilir. Qurban kəsərkən diqqət yetiriləcək əsas məqamlardan biri kəsimin dini və baytarlıq qanunlarına uyğun həyata keçirilməsidir. Hazırda muxtar respublikamızın şəhər, rayon və kəndlərində müasir standartlara uyğun kəsim sexləri mövcuddur. Qurban bayramının yay fəslinə təsadüf etməsi nəzərə alınaraq qurbanlıq heyvanların qeyd olunan kəsim sexlərində qəssablar tərəfindən kəsilməsi məqsədəuyğundur. Çünki yaşayış binalarının həyətyanı sahələrində qurban kəsilməsi antisanitariya vəziyyəti yarada bilər. Qurban bayramının ən gözəl xüsusiyyətlərindən biri də odur ki, burada din, məzhəb ayrı-seçkiliyinə yol verilmir. Bu bayramda istənilən dindən olan yetimin, kimsəsizin və yoxsulun haqqı var ki, varlının imkanlarından bəhrələnsin. Qurbanlıq o deməkdir ki, insanlar Allahın xoşuna gələcək bir əməli icra edirlər. Qurban kəsmək və onu paylaşmaq sosial bərabərliyə ən gözəl nümunələrdən biridir.

Uca Tanrıya məhəbbətin, Rəbbimizin öz bəndələrinə lütf və mərhəmətinin ifadəsi olan müqəddəs Qurban bayramı əsrlər boyu insanların həmrəyliyinə, mənəvi saflaşmasına xidmət etmişdir. Bu bayram müsəlman dünyasında əsl təntənəyə çevrilir, insanlara birlik, həmrəylik, şəfqət və xeyirxahlıq duyğuları aşılayır. Dinimizin təlqin etdiyi ədalət prinsipləri də Qurban bayramında özünü göstərir. Bayram insanların mənən saflaşması, onların daha sıx birləşməsi üçün bir vasitədir. Bu birlik ovqatı bizim hamımız – cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir. Məhz birliyimiz, həmrəyliyimiz düşmənlərimizi məğlubiyyətə uğradacaq, böyük qələbəmizi təmin edəcəkdir.

**Naxçıvan Muxtar Respublikasının**
**Dini Qurumlarla İş üzrə İdarəsi**

*El sənəti*

## Babalarımızdan miras qalan dulusçuluq sənəti bu gün də yaşadılır

*Dulusçuluq qədim sənətkarlıq növü kimi xalqımızın məişətində mühüm yer tutub. Qədim dulusçuluq nümunələrinin tapıldığı yerlər arxeoloq alimlər tərəfindən oturaq həyatın və şəhər mədəniyyətinin məkanı kimi yüksək qiymətləndirilir. Muxtar respublikamızda da arxeoloji qazıntılar zamanı tapılan müxtəlif dulusçuluq nümunələri də sübut edir ki, bu sənət növü qədim dövrlərdən bəri Naxçıvanda yüksək səviyyədə inkişaf edib. Ona görə də xalqımızın tarixi keçmişini əks etdirən bu sənətin yaşadılması diqqət mərkəzində saxlanılır.*

Bu gün Naxçıvanda dulusçuluq sənətini yaşadanlardan biri Elnur Əliyevdir. Elnur usta uşaq vaxtlarından bu sənətə maraq göstərib. Onunla söhbət zamanı qeyd edir ki, ilk başda balaca qablar, çölməklər hazırlayırmış. Daha sonra "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Masallı şəhərindən dəvət olunan usta Cəsarət Nuriyevdən bu sənətin sirlərinə yiyələnib və artıq iki ilə yaxındır, sərbəst fəaliyyət göstərir. İndi daha o, böyük çölməklər, səhənglər və samovarlar da hazırlamaqda püxtələşib.



Bu sənətin çox zəhmət tələb etdiyini deyən dulusçu qeyd edir ki, saxsı qab həm keyfiyyətli, həm də sağlamlıq üçün tam zərərsizdir. Belə ki, zaman keçdikcə məişətimizə, mətbəximizə sənaye üsulu ilə hazırlanan mis, alüminium, keramik qablar daxil olsa da, saxsı qablar heç vaxt dəbdən düşməyib. Ona görə də dulusçuluq çətin peşə olsa da, heç zaman əhəmiyyətini itirməyən, gərəkli olan sənət növlərindəndir. Bu sənətin sirlərindən həvəslə söz açan usta bildirir ki, burada əl əməyi əsas rol oynayır. İlk olaraq keyfiyyətli saxsı qab hazırlamaq üçün gərək yaxşı material əldə olunsun. Bunun üçün o, xammal kimi Babək rayonunun Nehrəm və Uzunoba kəndləri ərazisindən gətirilmiş gilli torpaqlardan istifadə edir. Əldə olunmuş keyfiyyətli gil əvvəlcə əllə yaxşıca yoğrulur. Bu işi palçıq ustası yerinə yetirir. Yoğurma işi iki-üç saatadək davam edir. Yoğrulmuş gil kiçik kündələrə ayrılır. Daha sonra palçıq kündə ayaqla fırladılan çarxın üzərinə qoyulur və usta ovcunun, əllərinin köməyi ilə gil parçasını saxsı qaba çevirir. Zövqə uyğun olaraq bu qablara müxtəlif forma vermək, kənarlarına naxış vurmaq mümkündür. Hazırlanmış saxsı qablar bir neçə gün qurudulduqdan sonra kürədə bişirilmək üçün yığılır. Saxsı qabın keyfiyyətli olması üçün bütün bunlara diqqətlə əməl edilməlidir.

Saxsı qabı qurudanda da diqqətli olmaq lazımdır. O, kölgədə qurudulmalıdır. Dulusçuluq məmulatları iki həftə sərin yerdə qurudulduqdan və sobada 1200 dərəcədə bişirildikdən sonra hazır məhsula çevrilir. Hətta bişəndən sonra da qablar bir gün sobada qalır. Əks halda, çatlaya bilər.

Elnur usta deyir ki, muxtar respublikamızda dulusçuluq məmulatlarına bu gün də tələbat var. Novruz bayramında "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində məhsulları sərgiyə çıxandan sonra saxsı qablara maraq daha da artıb. Hazırda bu məhsulların "Dizayn" Məhdud Məsuliyyətli Cəmiyyətinin, "Cahan" Ticarət Mərkəzinin mağazalarında satışları təşkil olunur. O, alıcılardan xahiş edir ki, ilk aldıqları saxsı çölməklərin içində əvvəlcə süd bişirsinlər. Həm də zəif odda. Əgər belə olsa, bu qabların 60 ildən çox ömrü olar. Saxsı qabda bişən yemək də dadlı olur. Bu qablardan su qabı kimi istifadə edilərsə, o, suyu çox sərin saxlayır, suda olan duzları təmizləyir.

Dulusçu Elnur Əliyev öz sənətindən çox razıdır. O, adicə gildən hazırladığı güldanlara, dibçəklərə, çölməklərə, su qablarına, səhəng və samovarlara baxanda, sanki bir daha keçmişə qayıdır.

Sevinirik ki, qədim tarixi nümunələrimiz belə sənətkarların əməyi ilə bu gün də yaşadılır.

✍ **Ramiyyə ƏKBƏROVA**

*Bu il yanvar ayının 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr"lə bağlı keçirilən müşavirədə verilmiş tapşırıqların icrası ilə əlaqədar Naxçıvanda bir neçə yeni idman bölməsi fəaliyyətə başlayıb.*

## Bədii gimnastikaya maraq daha da artıb



Bu bölmələrdən biri də Şərur rayonunda fəaliyyət göstərən qızlar üçün bədii gimnastika bölməsidir. Bölmə Şərur Olimpiya-İdman Kompleksinin zalında yerləşir və qızların məşq etməsi üçün zal bədii gimnastika avadanlıqları ilə təmin edilib. Cari ilin əvvəlindən fəaliyyətə başlayan bölməyə müvəqqəti olaraq həftədə iki dəfə məşqçi-müəllim, idman ustası Humay Qafarova rəhbərlik edirdi. Bölmənin müəllimi Sevinc Nəcəfova isə Bakıda 6 aylıq məşqçi kursuna göndərilmişdi.

Paytaxtda kursu başa vuran məşqçi-müəllim artıq muxtar respublikaya qayıdıb. Sevinc Nəcəfova ilə söhbətimizdə o qeyd etdi ki, Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyinin dəstəyi ilə mart ayından etibarən Bakı şəhərindəki gimnastika arenasında bədii gimnastika idman növü üzrə ixtisasartırma kurslarına cəlb olunmuşam. 6 aylıq kursda müəllimlərimiz bizə uşaqlarla düzgün rəftar, bədii gimnastika üzrə məşqlərin aparılma qaydaları barədə həm nəzəri, həm də praktik seminarlar keçiblər.

O dedi: "Seminarlarda Azərbaycan Gimnastika Federasiyasının baş məşqçisi və digər təcrübəli məşqçilər iştirak edirdi. Seminarlardan əlavə mütəmadi olaraq yığma komandanın məşqlərinə cəlb olunur, yarışların keçirilməsi və təşkilatı işlərdə iştirak edirdik. Kursu uğurla başa vurduqdan sonra Naxçıvana qayıtmışam və öyrəndiklərimi bundan sonra bədii gimnastika üzrə Şərur rayon bölməsində uşaq və yeniyetmələrimizə öyrədəcəyəm. Mənə göstərilən bu diqqət və qayğıya, yaradılan şəraitə görə dövlətimizə minnətdarlığımı bildirirəm".

Qeyd edək ki, bölmədə 50-yə yaxın qız bədii gimnastikanın sirlərini öyrənir. Məşqlər həftədə 2 dəfə olmaqla keçirilir. Növbəti aydan məşqlərin həftədə 3 və ya 4 dəfə keçirilməsi nəzərdə tutulub.

✍ **Ceyhun MƏMMƏDOV**

## Tender elanı

İkinci Azərbaycan Kənd İnvestisiya Layihəsinin Naxçıvan Regional Əməliyyatlar Ofisinin əhatə etdiyi Babək rayonunun Payız icmasının tender komissiyası icma qrupunun hazırladığı "Yolun təmiri" adlı layihənin icrası məqsədilə keçirilən tenderdə iştirak etmək iddiasında olan bütün hüquqi və fiziki şəxsləri əməkdaşlığa dəvət edir.

Tender komissiyasına aşağıdakı sənədlər təqdim olunmalıdır:

** Maraq məktubu*
** Nizamnamə*
** Maddi-texniki baza və insan resursları barədə məlumat*
** Son 3 ildə infrastruktur tipli layihələrdə iş təcrübəsinin olması.*

Qeyd olunmuş sənədlər toplusunu 10 sentyabr 2017-ci il, saat $18^{00}$-a kimi tender komissiyasına təqdim etmək lazımdır.

***Babək rayonu, Payız kəndi tender komissiyası***
***icma qrupunun sədri: Əşrəf Cəfərov***
***Əlaqə telefonu: (070) 241-85-42***


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Hüseynov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 693**